Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Maliyyə bazarlarının inkişafı və kreditlərin əlçatanlığı İşçi qrupunun iclasının

PROTOKOLU

Bakı şəhəri *2 İyun, 2022-ci il*

İştirakçılar:

1. Vüsal Şıxəliyev - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının sektor müdiri, Komissiyanın Katibliyinin rəhbəri;
2. Rəşad Orucov- Mərkəzi Bankın İdarə Heyətinin üzvü, Maliyyə bazarlarının inkişafı və kreditlərin əlçatanlığı işçi qrupunun rəhbəri;
3. Tural Feyzullayev-"Access Bank" QSC-nin Hüquq və Komplayens departamentinin direktoru, Maliyyə bazarlarının inkişafı və kreditlərin əlçatanlığı işçi qrupunun rəhbərinin müavini;
4. Fərahim Hüseynzadə-Mərkəzi Bankın Aparıcı hüquq məsləhətçisi, Maliyyə bazarlarının inkişafı və kreditlərin əlçatanlığı işçi qrupunun katibi;
5. Zakir Nuriyev- Azərbaycan Banklar Assosiasiyasının Prezidenti;
6. Gündüz Əliyev- Maliyyə Nazirliyinin Maliyyə xidmətləri üzrə siyasət şöbəsinin müdir müavini;
7. Mehdi Həsənov- İqtisadiyyat Nazirliyinin İqtisadi siyasət şöbəsinin Maliyyə və kredit sektorunun müdiri;
8. Kamran Babayev- Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin şöbə rəisi;
9. Yunus Abdulov-Azərbaycan Banklar Assosiasiyasının İcraçı direktoru;
10. Əzizağa Haxverdiyev-Azərbaycan Banklar Assosiasiyasının baş iqtisadçısı;
11. Aytac Rzazadə-Ədliyyə Nazirliyinin Qanunvericilik baş idarəsinin İqtisadi normativ aktlar idarəsinin məsləhətçisi;
12. Aytən Axundova- İsveçrənin Azərbaycan Respublikası və Türkmənistandakı Səfirliyinin Milli Proqram İnzibatçısı;
13. Cəlal Əliyev- Azərbaycan Mikromaliyyə Assosiasiyasının İdarə Heyətinin sədri;

14. Süleyman Kələşov- Azərbaycan Mikromaliyyə Assosiasiyasının İdarə Heyətinin sədrinin müavini;
15. Jalə Hacıyeva- Azərbaycan Mikromaliyyə Assosiasiyasının icraçı direktoru;
16. Pərvanə Qasımova- "AzFinance İnvestisiya Şirkəti" QSC-nin direktor müavini;
17. Toğrul Rəhimbəyli- Dövlət Neft Fondunun Risklərin idarə edilməsi departamentinin Modelləşdirmə və gəlirliliyin ölçülməsi şöbəsinin baş təhlilçisi;
18. Nəsibə Muradxanova- "KPMG Audit Azərbaycan" MMC-nin Audit üzrə direktoru;
19. Camal Həsənov- "Deloitte & Touche" şirkətinin audit xidmətləri üzrə partnyoru.

Müzakirə olunmuş məsələlər:

- Dünya Bankının yeni Əlverişli Biznes Mühiti (Business Enabling Environment - BEE) layihəsi ilə əlaqədar məlumat verilməsi və müzakirələrin aparılması;
- Dünya Bankı Qrupunun "Əlverişli Biznes Mühiti" layihəsinin "Maliyyə xidmətləri" indikatoru üzrə diaqnostika matrisasının tərtibinə dair müzakirələrin aparılması;
- İşçi qrupun 2022-ci il üçün Fəaliyyət Planı barədə məlumat verilməsi.

İclasın gedişatı

Cari ilin 2 iyun tarixində Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Maliyyə bazarlarının inkişafı və kreditlərin əlçatanlığı İşçi qrupunun onlayn iclası keçirilmişdir.

Maliyyə bazarlarının inkişafı və kreditlərin əlçatanlığı işçi qrupunun rəhbəri Rəşad Orucov onlayn platforma üzərindən təşkil edilən iclası açıq elan edərək gündəlikdə duran məsələlər barədə məlumat verdi. Daha sonra, işçi qrupu rəhbərinin müavini Tural Feyzullayev Dünya Bankı qrupunun yeni Business Enabling Environment layihəsi barədə danışaraq, layihənin yeni konsepsiya sənədi barədə dolğun məlumatı işçi qrupu üzvlərinin diqqətinə çatdırdı.

Komissiyanın Katibliyinin rəhbəri Vüsal Şıxəliyev Dünya Bankı qrupunun yeni layihəsi üzrə görüləcək işlər barədə məlumat verərək hesabatların təqdim olunma vaxtlarının bəlli olduğunu və bu işlərin ən qısa zamanda həyata keçirilməsi zərurətini qeyd

etdi. Müvafiq işlərin aparılması ilə əlaqədar diaqnostika qrupunun yaradılması və diaqnostika matrisasının 10 iş günü ərzində tamamlanmalı olduğunu bildirdi.

İşçi qrupunun katibi Fərahim Hüseynzadə çıxış edərək İşçi qrupunun 2022-ci il üzrə Fəaliyyət Planında yer alan hesabatlar, hesabatlar üzrə icrası nəzərdə tutulan tədbirlər və icraçı qurumların atmalı olduqları addımlar barədə məlumat verdi.

Daha sonra Azərbaycan Banklar Assosiasiyasının prezidenti Zakir Nuriyev çıxış edərək Assosiasiyanın hesabatlarda icrası nəzərdə tutulan tədbirlər, həmçinin yaradılması nəzərdə tutulan diaqnostika qrupunun işində aktiv iştiraka hazır olduğunu qeyd etdi.

İclasın yekununda İşçi qrupunun rəhbəri Rəşad Orucov diaqnostika qrupuna rəhbər kimi Tural Feyzullayevin namizədliyini irəli sürərək, müvafiq işlərin ən qısa zamanda tamamlanması ilə bağlı tapşırıq verdi. Tural Feyzullayevin namizədliyi və aşağıdakı heyətlə diaqnostika qrupunun tərkibi yekdilliklə qəbul edildi:

Təklif olunan üzvlər:

Üzv	Komponent	Qurum
Tural Feyzullayev (rəhbər)	Bütün	AccessBank
Fərahim Hüseynzadə	Bütün	Mərkəzi Bank
Əzizağa Haxverdiyev	Bütün	ABA
Tamerlan Rüstəmov	#1.2 #3.1	Bank of Baku
Samir İsmayılov	#1.3	Mərkəzi Bank
Pərvanə Qasımova	#1.3	AzFinance
Aydan Ağabalayeva	#1.3	Mərkəzi Bank
Seymur Həsənov	#2.1 #3.2	AKB
Aytac Rzazadə	#1.1 #1.2 #1.3	Ədliyyə Nazirliyi
Nəsibə Muradxanova	Bütün	KPMG
Ülviyyə Zeynalova-Boçkin	Bütün	Dentons
Kamal Hüseynli	Bütün	MGB
Günel Hadıyeva	Bütün	Ekvita
Rəşid Məmmədov	Bütün	AmCham

Komponentlər

1. Təminatlı əqdlər, elektron ödənişlər və yaşıl maliyyələşmə üzrə qaydaların keyfiyyəti
   1.1. Təminatlı əqdlər
   1.2. Elektron ödənişlər
   1.3. Yaşıl maliyyələşmə
2. Kredit hesabat sisteminin keyfiyyəti
   2.1. Kredit büroları və reyestrlərinin fəaliyyəti
   2.2. Yüklülük reyestrlərinin fəaliyyəti

3. Maliyyə xidmətlərinin əldə olunmasının asanlığı
   3.1. Elektron ödənişlərin həyata keçirilməsi
   3.2. Kreditlərin əldə olunması

Qərara alındı:

1. Diaqnostika qrupunun tərkibi təsdiq edilsin və Komissiyanın Katibliyinə təqdim edilsin.

Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın "Maliyyə bazarlarının inkişafı və kreditlərin əlçatanlığı" işçi qrupunun rəhbəri, Mərkəzi Bankın İdarə Heyətinin üzvü **Rəşad Orucov**

Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın "Maliyyə bazarlarının inkişafı və kreditlərin əlçatanlığı" işçi qrupunun katibi, Mərkəzi Bankın Aparıcı hüquq məsləhətçisi **Fərahim Hüseynzadə**